Kamal Adıgözəlov

# Yeni tarixi

## Yekun

***Azərbaycanın xarici siyasətinin prioritet istiqamətləri dövrün tələblərinə və müasir dünyanın çağırışlarına uyğun şəkildə müəyyənləşdirilib. Müstəqillik dövrünün təcrübəsi göstərir ki, Ulu Öndər Heydər Əliyev başlıca strateji məqsədi düzgün və dəqiq müəyyənləşdirərək əsas prioritetləri ona uyğun təyin edib. Təhlillər göstərir ki, yeni tarixi mərhələ üçün Prezident İlham Əliyevin müəyyən etdiyi 14 istiqamət qarşıdakı vəzifələri yüksək dəqiqliklə əks etdirir.***

***Aparılan politoloji araşdırmaya görə, xarici siyasətin prioritet istiqamətlərinin sayının 14 olması təsadüfi deyildir. Onların hər biri özlüyündə xarici siyasətin "4M" (multivektoralizm, multilateralizm, multiregionalizm və multikulturalizm-)modelinin konkret aspektini ifadə edir, cəm halında isə yeni mərhələdə xarici siyasətin başlıca hədəfinə nail olunmasının mexanizmini ortaya qoyur. Bu iki məqamın prizmasından silsilə məqalələrdə təhlil etdiyimiz prioritet istiqamətləri ümumiləşdirmək mümkündür.***

Hər şeydən öncə, vurğulanan istiqamətlərin təməlində əsas müddəa olaraq yeni tarixi mərhələdə Azərbaycanın müstəqil dövlət kimi milli maraqlarının dayandığını görürük. Bu səbəbdən istiqamətlərin ümumi xarakteristikasında milli maraqlar və beynəlxalq hüququn vurğulanması təsadüfi deyildir. Yəni, milli maraqlara söykənən xarici siyasət özündə üç mühüm əlaməti daşıyacaqdır – beynəlxalq hüquqa sadiqlik, müstəqil siyasi xəttin reallaşdırılması və prinsipial mövqe! Eyni zamanda, hüquq, müstəqillik və prinsipiallıq milli maraqları xarici siyasətdə təmin etmənin başlıca prinsipləri kimi qiymətləndirilə bilər. Bu məqam Prezident İlham Əliyevin siyasi liderlikdə son dərəcə əsaslı və düşünülmüş addımlar atdığının daha bir göstəricisidir.




Xarici siyasətin prioritet istiqamətlərinin təhlilinin başlıca özəllikləri ilə bağlı fikirlərimizə davam etmək üçün son 20 ildə Azərbaycan Prezidentinin xarici siyasət sahəsində atdığı addımlara bir də nəzər salaq. Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev həmin bağlılıqda ifadə edir ki, "uğurlu xarici siyasətin arxasında Prezident İlham Əliyevin düşünülmüş, məntiqli və təmkinli siyasəti, gərgin iş qrafiki, çoxsaylı və intensiv görüşləri, xarici səfərləri, mötəbər beynəlxalq tədbirlərdə çoxsaylı çıxışları, qəbul etdiyi çevik qərarları və verdiyi tapşırıq və təlimatları durur". Xarici siyasət mahiyyət etibarı ilə uzunmüddətli perspektivi əhatə edir. Hikmət Hacıyev xüsusi vurğulayır ki, "Dövlətimizin başçısının xarici siyasət sahəsində bu gün irəli sürdüyü bir sıra təşəbbüslər və layihələr var ki, Azərbaycan xalqı hələ qarşıdan gələn onilliklər ərzində onların bəhrəsini və faydasını görəcək". Buna görə də "heç də təsadüfi deyil ki, Prezident İlham Əliyevin yürütdüyü xarici siyasət "Intelligent Foreign Policy" (müdrik, zəkalı xarici siyasət) kimi qiymətləndirilir və xarakterizə olunur" (1).




Prezident İlham Əliyevin yeritdiyi xarici siyasətin bir sıra məqamları haqqında yuxarıda vurğulanan fikirlərin işığında yeni mərhələdə xarici siyasətin 14 istiqamətinin mükəmməl sistemli fəaliyyəti ifadə etməsi tamamilə təbiidir. Təhlillərimizdə əsas olaraq bu tezis irəli sürülüb. Onun fonunda hər bir istiqamət ayrıca politoloji mövqedən təhlil edilib.

***Təhlillərdən belə qənaət alınır ki, yeni tarixi mərhələdə Azərbaycan üçün Ermənistanla sülh müqaviləsinin imzalanması prinsipial əhəmiyyət daşıyır. Məsələ yalnız rəsmi İrəvanın şıltaqlığı ilə bağlı deyildir. Azərbaycan rəhbəri bütövlükdə regionda qalıcı sülh, əməkdaşlıq və təhlükəsizlik modelini formalaşdırır. Bunun üçün, təcrübədən də məlumdur ki, region ölkələri arasında hər hansı ziddiyyət olmamalıdır. Deməli, Azərbaycan Ermənistanla sülh müqaviləsinə yeni tarixi mərhələdə Cənubi Qafqazda yeni geosiyasi trendin formalaşdırılmasının mühüm elementi kimi baxır. Buna görə də prioritet istiqamətlər sırasında həmin bənd ilk sırada yerləşdirilib.***





Bunun ardınca regionda davamlı sülh və onun dayanıqlığı məsələsi qoyulur. Yəni, sülh müqaviləsinin başlıca məqsədi regional miqyasda davamlı və dayanıqlı sülhə nail olmaqdır. Bu iki prioritet istiqamət birlikdə xarici siyasətin multikultural və multilateral xarakterinin real məzmun almasının baza müddəaları kimi təsəvvür edilə bilər. Çünki milli maraqlar əsasında regional sülhə davamlılıq və dayanıqlılıq şərtləri ilə nail olmaq məqsədi qarşıya qoyulursa, buradan regionlararası və qlobal miqyasda faydalı və təhlükəsiz əməkdaşlıq modellərinə çıxmaq mümkündür. XXI əsrin təcrübəsi göstərir ki, müxtəlif regionlarda qurulmasına çalışılan analoji modellər ilk növbədə məhz regional səviyyədə sülh, əməkdaşlıq və təhlükəsizliyin davamlı olmaması səbəbindən yarımçıq qalmaqdadır. Bunu, məsələn, Yaxın Şərqin, Şərqi Avropanın, Balkanların və Asiya-Sakit okean regionu ölkələrinin siyasi praktikasında müşahidə edirik.

Bütün bunlara görədir ki,

# mərhələdə

## Azərbaycanın xarici siyasətinin prioritetləri

Prezident İlham Əliyev prioritet istiqamətlər sırasında ardıcıl olaraq Azərbaycanın beynəlxalq mövqelərinin daha da möhkəmləndirilməsi, beynəlxalq təhlükəsizlik arxitekturasının formalaşdırılması və qlobal problemlərin həllində rolunun artırılması, ölkənin geosiyasi təhlükələrdən və hibrid təhdidlərdən qorunması və yekun olaraq Azərbaycanın bütövlükdə qeyri-münaqişə gündəliyinin formalaşdırılması kimi istiqamətləri müəyyən edib və onları vahid mentiqi sistemdə reallaşdırmaqdadır. Vurğulanan üç istiqamətin məzmununa nəzər saldıqda görürük ki, dövlət başçısı qarşıya tamamilə konkret və real vəzifələr qoyub. Azərbaycan diplomatiyası onları həyata keçirmək qüdrətindədir və bunu indi praktika da təsdiq edir.

Prioritet istiqamətlərdə bundan sonra çox maraqlı və perspektivli bir keçid edilir. Bu xüsusda, konkret olaraq, regional geosiyasi konfiqurasiyanın regional təşkilatlanma və qlobal strateji tərəfdaşlıqla orijinal sintez edilməsini görürük. Başqa bir Avrasiya məkanı dövlətində xarici siyasətin belə bir fəaliyyət masştabı yoxdur. Bunun üçün İlham Əliyev konkret mexanizmi də göstərir – qonşu ölkələrlə və regional təşkilat üzvləri ilə ikitərəfli və çoxtərəfli əməkdaşlıq nümunələrinin vəhdətinə nail olmaq! Deməli, burada söhbət, regional miqyasda ikitərəfli əməkdaşlığı regional təşkilatlanma miqyasına uğurlu proyeksiya etməklə qlobal səviyyədə strateji tərəfdaşlığı real zəminə oturtmaq şansının yaranmasından gedir. Bu proses hətta strateji müttəfiqliyə aparıb çıxarmalıdır ki, bu da Azərbaycanın qlobal miqyasda çox ciddi geosiyasi oyunçu statusu alması deməkdir. Onu vurğulayaq ki, bütövlükdə bu məqam yeni tarixi mərhələdə Azərbaycanın əsas strateji hədəflərindən birini ifadə edir.

Həmin sırada Türk Dövlətləri Təşkilatının (TDT) ayrıca vurğulanması ciddi əsaslandırılmış mövqedir. Bu istiqamət "Bir millət, iki dövlət" kəlamının yeni tarixi mərhələdə inkişafının bir sıra aspektlərini özündə əks etdirir (2). Bu baxımdan Prezidentin " ... Türk Dövlətləri Təşkilatı çərçivəsində səylərimizi davam etdirəcəyik. Bu, bizim üçün prioritetdir ... Bu, bizim üçün əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz Türk dünyasıdır" (3) dahiyanə tezisi ciddi strateji məna daşıyır. Bunun politoloji araşdırılması çox faydalı olardı.

***Təhlillər xarici siyasətin prioritetlərində növbəti iki mühüm geosiyasi məqamın da mövcudluğunu aydınlaşdırır. Onlardan biri öncəki istiqamətlərdə qarşıya qoyulan məqsədlərə çatmağın iqtisadi və enerji şərtlərini, digəri isə beynəlxalq təşkilatlarda fəaliyyətin yeni səviyyədə təşkilini ifadə edir.***

***Prioritetlərdə dəqiq göstərilir ki, yeni tarixi mərhələdə Azərbaycanın iqtisadi və enerji diplomatiyasının inkişaf etdirilməsi zəruridir. Burada da iki mühüm faktor önə çıxarılır: alternativ və bərpaolunan enerji növlərinin artırılması hesabına 'yaşıl enerji" gündəliyinin irəli aparılması və iqlim dəyişikliyinə qarşı qlobal mübarizəyə töhfənin davam etdirilməsi.***

Silsilə məqalələrdəki təhlil hər iki faktorun oynadığı rolu dərk etməyə imkan verir. Belə görünür ki, Azərbaycan enerji strategiyasını yeni tarixi mərhələdə çox geniş geosiyasi məkanda ardıcıl şəkildə davam etdirmək niyyətindədir və bu məqsədlə bütün dünya dövlətləri üçün əhəmiyyətli olan bərpaolunan və "yaşıl enerji" sferalarında əməkdaşlığı daha mükəmməl və qlobal səviyyəyə yüksəltməkdə qərarlıdır. Bunun fonunda isə nəqliyyat-logistika, informasiya, kommunikasiya texnologiyaları, rəqəmsallaşma və digər istiqamətlərdə əməkdaşlığın yeni formatlarının müəyyən edilməsi planları dayanır.

Təhlil əsaslı surətdə aydınlaşdırır ki, xarici siyasətin enerji, nəqliyyat və logistika ilə bağlı yuxarıda vurğulanan istiqamətlərinin reallaşmasında beynəlxalq təşkilatlarda, ilk növbədə, TDT və Qoşulmama Hərəkatı daxilində fəaliyyətdən yararlanmaq xüsusi yer tutur. Beynəlxalq təşkilatlarda feal iştirakın təmin edilməsinin ayrıca prioritet kimi vurğulanması bu səbəbdən olduqca əhəmiyyətlidir.

Lakin aparılan araşdırma göstərir ki, məsələ bununla məhdudlaşmır. Azərbaycan dünya miqyasında multikulturalizmi və tolerantlığı əsas tutaraq irqi ayrı-seçkiliyə və müstəmləkəçiliyə qarşı ciddi və davamlı mübarizə aparmaq fikrindədir.

Bununla aydınlaşır ki, xarici siyasətin yekunu yeni tarixi mərhələdə dünya miqyasında sözükeçən və müsbət fəaliyyəti ilə diqqətləri çəkən qüdrətli dövlət formalaşdırmaqdan ibarət olmalıdır!

***Əlbəttə, bir neçə məqalədə xarici siyasətin prioritetlərini tam politoloji araşdırmaq imkansızdır. Lakin aparılan təhlillər göstərir ki, Prezident İlham Əliyev sistemli və ardıcıl proqram-konsepsiya hazırlayaraq, onları reallaşdırmaqda qərarlıdır. Bu da yeni tarixi mərhələdə Azərbaycan Respublikasının daha da inkişaf etmiş qüdrətli bir dövlət olacağına böyük əminlik yaradır. Bu prosesə xarici siyasətin prioritetlərinin də əhəmiyyətli təsiri olacağı şübhəsizdir!***









**Mənbələr**

*1. Hikmət Hacıyev: "Azərbaycan son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə xarici siyasət sahəsində ciddi uğurlara imza atıb" // Azərbaycan. – 2018, 16 oktyabr. – s. 11.*

*2. Azərbaycanın xarici siyasətində yeni istiqamətlər [Elektron resurs] // – Bakı, 17 fevral 2024. URL: https://azertag.az/xeber/azerbaycaninxaricisiyasetindeyenieistiqametlereəserh-2926811*

*3. Zəfər seçkisinin qalibi and içdi! Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Milli Məclisdə andiçmə mərasimi keçirilib // Yeni Azərbaycan. – 2024, 15 fevral. – s. 2-3.*